# Rayon müəllimlərinin sentyabr konfransı

## Faiq ŞAHBAZLI
## Təhsil Nazirliyinin şöbə müdiri

**Hörmətli Fəttah Heydərov!**
**Hörmətli Səbuhi Abdullayev!**
Əziz konfrans iştirakçıları!

Sizin hamınızı respublikanın Təhsil Nazirliyi adından salamlayıram.

Təhsil həqiqətən dövlətin strateji, bir sahəsidir. Azərbaycanda indiki təhsilin əsası 1999-cu ildə ümummilli lider Heydər Əliyev tərəfrndən qoyulmuşdur. O vaxtdan başlanan islahatlar Azərbaycan Respublikasının möhtərəm Prezidenti İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilir. Bu illər ərzində Azərbaycan təhsili istər maddi-texniki baza, istərsə də məzmun etibarı ilə xeyli dəyişmiş, yeniləşmiş, gənc nəslin intellekt səviyyəsi yüksəlmiş, onlarda həyata yeni dünyabaxış formalaşmışdır.



Əlbəttə biz bununla yanaşı köhnəliyin yeniliklə mübarizəsinin davam etdiyini də görürük.

Bir faktı da qeyd etmək istərdim ki, məktəblərin maddi-texniki bazası son illərdə həqiqətən xeyli yüksəlmişdir. Bunu məruzədə və məruzə ətrafındakı çıxışlarda da aydın gördük. Lakin birtərəfli qaydada bu sahənin inkişafı bizi qane edə bilməz. İnkişafın bu sahəsinə görə məzmun hələ çox geridə qalır. Təhsilin məzmunu onun maddi tərəfi, texnitki tərəfi ilə paralel inkişaf etməlidir. Bu fərq aradan qaldırılmalıdır. Məktəblərdə kurikulumun tətbiqi davam edir. Ötən dərs ilində bu yeni təlim metodunun tətbiqi siniflərdə başa çatmış, bu dərs ilində VI siniflərdə tətbiq olunacaqdır. Bu tədris üsülunu bəzi müəllimlər səhlənkarlıq üzündən tətbiq etməkdən yayınır, hələ də köhnə üsulla dərs keçirlər. Bunun nəticəsi isə sonda görünə bilər. Burada çətin bir məsələ yoxdur. Kurikulum sadəcə olaraq standartların konkretləşdirilməsi nəticələrin nədən ibarət olması ilə bağlı bir proqram, konseptual bir sənəddir. Bu təlim üsulu çox yaxşı və düzgün üsuldur. Doğrudur, bu isğtiqamətdə çoxlu sayda, həftəlik, 10 günllük kurslar təşkil olunur. Lakin bu kurslarda istiqamətlər verilir. Müəllim bu üsulla verilən tələbləri daim öyrənməli, yenilikləri dərk etməli və öz işinə yönəltməlidir.

Bizi narahat edən məsələlərdən biri də şagirdlərin məktəbdən yayınmasıdır. Bu məsələ təhsil şöbələrinin, məktəb rəhbərlərinin, ictimaiyyətin diqqət mərkəzində saxlanılmalıdır.

* * *

Formativ qiymətləndirmədən, 65 yaşı tamam olan müəllimlərin yenidən işləmək arzusu ilə müraciətlərindən dərsliklə təminat məsələlərindən danışan natiq sonda əmin olduğunu bildirmişdir ki, Qəbələdə bu məsələlər də digər sahələrdə olduğu kimi öz müsbət həllini tapacaqdır.

---

(Əvvəli 3-cü səhifədə).

# Rayon təhsil şöbəsinin müdiri Oqtay Hacıyevin məruzəsi

2012—2013-cü dərs ilində Kiçik Pirəlli kəndində 180 yerlik yeni məktəb binası tikilib istifadəyə verilmiş, məktəbin daxilində istilik sistemi quraşdırılmış, müasir informasiya-telekommunikasiya texnologiyaları ilə təmin olunmuşdur. Tikanlı və Həmzəli kənd tam orta məktəblərinin dam örtüyü dəyişdirilmiş, şəhər 4 saylı tam orta məktəbin akt zalı təmir olunmuş, RİH-nin yaxından köməkliyi sayəsində rayonun digər ümumtəhsil məktəblərində cari təmir işləri aparılmışdır. Yengicə və Zirik kənd ümumi orta, şəhər 5 saylı tam orta məktəblərinin smeta layihə sənədləri hazırlanmış, yaxın vaxtlarda onların tikintisinə başlanacaqdır.

Görülən geniş əhatəli işlərə, təhsilə göstərilən qayğı və diqqətə cavab olaraq Qəbələ RTŞ-si də öz növbəsində işini müasir tələblər səviyyəsində qurmağa, dövlətimizin, Azərbaycan Respublikası Təhsil Nazirliyinin, rayon icra hakimiyyətinin qarşıya qoyduğu vəzifələri vaxtında həll etməyə, təhsildə aparılan islahat proqramlarının layiqincə yerinə yetrilməsi üçün bütün imkanlarını səfərbər etməyə çalışır.

2012—2013-cü dərs ilində rayonda 68 ümumtəhsil məktəbi, o cümlədən 53 tam orta, 11 ümumi orta, 4 ibtidai məktəb fəaliyyət göstərmiş, şagirdlərimizin sayı 16.664 nəfər, ötən dərs ilində onların təlim-tərbiyəsi ilə 2.317 nəfər müəllim məşğul olmuşdur. Məktəblərimizdən 52-i beşgünlük iş rejimi ilə işləmişdir. Rayon üzrə beş məktəbdənkənar təlim-tərbiyə müəssisəsi fəaliyyət göstərmişdir, onlara 81 qrupda 1171 nəfər şagird cəlb edilmişdir.

**Hörmətli konfrans iştirakçıları!**

Rayonun ümumtəhsil məktəblərində çalışan 2.317 müəllimdən 1.919 nəfəri ali, 398 nəfəri isə orta ixtisas təhsillidir. Onların əksəriyyətini, yəni 1.744 nəfərini və ya 75,3 faizini qadınlar təşkil edir. Qadınlarımız məktəblər üzrə rəhbər vəzifələrdə də böyük fəallıq göstərirlər. Hazırda rayon məktəblərindən 19-nun direktoru, direktor müavinlərindən 57 nəfəri qadınlardır.

Təlim-tərbiyənin keyfiyyəti təhsil müəssisələrində çalışan kadrların potensial imkanlarından, işə yaradıcı və məsuliyyətlə yanaşmalarından çox asılıdır. Müasir dövrdə o məktəbi yaxşı məktəb hesab etmək olar ki, orada aparıcı fənlərdən hec olmasa bir nəfər də olsa yaxşı müəllim olsun. Bu baxımdan rayon məktəblərində kadrların keyfiyyət tərkibinin yüksəldilməsi, onların elmi-metodiki hazırlığının artırılması, eləcə də müəllimə olan ehtiyacın ödənilməsi istiqamətində müntəzəm iş aparılır.

Hər il olduğu kimi ötən dərs ilində də kadrlara olan ehtiyacı təmin etmək məqsədilə Təhsil Nazirliyinə 20 vakant yer sifariş edilmişdir. Hazırda müəllimlərin işə qəbulu Azərbaycan Respublikası təhsil nazirinin 2 may 2011-ci il tarixli, 795 saylı əmrinə əsasən aparılır. Ali məktəbləri bitirmiş məzunlar 15 iyul 2013-cü il tarixə kimi respublikanın bütün şəhər və rayonlarından verilmiş vakant yerlərə elektron ərizə ilə müraciət edir. Hər fənn üzrə Təhsil Nazirliyində əvvəlcədən müəyyən olunmuş günlərdə test imtahanı keçirilir.

Tədris ili ərzində müəllim və tərbiyəçilərin ixtisas və peşə hazırlığının təkmilləşdirilməsi sahəsində ardıcıl iş aparılmış, onların respublika və yerli kurslarda iştirakı diqqət mərkəzində saxlanılmışdır. Müxtəlif ixtisaslar üzrə, eləcə də xüsusi istedada malik 70-dən çox gənc müəllim Azərbaycan Müəllimlər İnstitutunda və onun Şəki filialında həftəlik və aylıq kurslardan keçmişdir.

Təhsil üçün nə qədər əlverişli şərait yaradılsa da, məktəbdə əsas sima, təlim prosesinin təməlində duran şəxsiyyət yenə də müəllimdir. Təhsilin keyfiyyəti ilk növbədə müəllimin elmi-nəzəri və metodiki hazırlığından, onun təhsildə gedən müasir proseslərə qoşulmasından asılıdır. Zamanla ayaqlaşmaq üçün hər bir müəllim təhsil, elm sahəsində olan yenilikləri vaxtında əldə etməli, komputer və digər İKT-dən istifadə etməyi bacarmalıdır.

Qabaqcıl müəllimlərdən şəhər 3 saylı tam orta məktəbin ibtidai sinif müəllimi Firmayə İsmayılova, şəhər 4 saylı tam orta məktəbin fizika müəllimi Şəlalə Zəkəriyəyeva, şəhər 2 saylı tam orta məktəbin ibtidai sinif müəllimi, respublikanın Əməkdar Müəllimi Yeganə Cəfərova, Bunud kənd tam orta məktəbin tarix müəllimi Ülfət Əzizov, şəhər 5 saylı tam orta məktəbin tarix müəllimi Tərbiyə İsayeva, Vəndam qəsəbə 1 saylı tam orta məktəbin xarici dil müəllimi Mədinə Qasımova və s. belə müəllimlərdəndir.

RTŞ-si nəzdində istetdadlı gənc müəllimlərin "Məlumat bankı" yaradılmış, müəyyən olunmuş formalar üzrə həmin müəllimlər haqqında məlumatların elektron variantı Təhsil Nazirliyinə təqdim edilmişdir. Gənc müəllimlərin pedaqoji ustalıqlarının təkmilləşdirilməsi məqsədilə onların hər biri işlədikləri məktəblərin qabaqcıl müəllimləri tərəfindən hamiliyə götürülmüşdür. Onların məktəblərdə tez-tez açıq dərsləri təşkil olunur, istedadlı gənc müəllimlər iştər məktəblərdə, istərsə də rayon, respublika səviyyəli müxtəlif yarış, müsabiqə və dəyirmi masalarda fəal iştirak edirlər.

Bütün bunların nəticəsidir ki, rayonumuzda işinin ustası olan yaşlı nəslə bərabər gənc müəllimlər ordusu da yetişməkdədir. Belə müllimlərdən şəhər 2 saylı tam orta məktəbin dil-ədəbiyat müəllimi Vüsalə Abdullayevanın, şəhər 2 saylı tam orta məktəbin tarix müəllimi Mələk Qurbanovanın, şəhər 3 saylı tam orta məktəbin ingilis dili müəllimi Vəfa Ədilovanın, Tüntül kənd tam orta məktəbin dil-ədəbiyyat müəllimi Afaq Abduxalıqovanın, Cığatelli kənd tam orta məktəbinin informatika müəllimi Yazgül Hacıyevanın, Vəndam qəsəbə 2 saylı məktəbin tarix müəllimi Nurlan Əmiraslanovun adını fərəh və iftixar hissi ilə qeyd etmək olar.

Ölkəmizdə keçirilən təhsil islahatının mühüm və aparıcı sahələrindən biri Milli kurikulumun yaradılmasıdır. Kurikulumla bağlı islahatın əsas mahiyyəti ondan ibarətdir ki, bu zaman təhsil alana subiyekt kimi baxılır, yəni təhsil alan şəxs fəaliyyətin subyektinə çevrilir. O, məqsəd qoymağı, situasiyanı və nəticəni təhlil etməyi, özünün fəaliyyətini qiymətləndirməyi bacarmalıdır.

Məktəblərimizdə artıq I—IV siniflərdə yeni məktəbin I pilləsində kurikulumla təhsil başa çatmış, keçən dərs ilində V siniflərdə, bu ildən etibarən VI siniflərdə bütün təhsil fənləri kurikulumla tədris olunacaqdır.

(Ardı 6-cı səhifədə).